*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 84-90* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.84*

# Məhəmməd Hadinin şeirlərində İran və Cənubi Azərbaycan mövzusu

**Aybəniz Rüstəmova**
Bakı şəhəri, Nərimanov rayonu, 73 nömrəli tam orta məktəb. Azərbaycan.

**Annotasiya.** Məqalədə XX əsr Azərbaycan romantizminin başçılarından biri olan Məhəmməd Hadinin İran və Cənubi Azərbaycan mövzusunda yazdığı şeirlərdən bəhs olunur. Qeyd olunur ki, poeziyasında maarif və mədəniyyət, tərəqqi, istiqlaliyyət, qadın azadlığı, imperializmin ifşası və s. məsələlərin şərhi mühüm yer tutan sənətkarın yaradıcılığında xüsusi yeri olan mövzulardan biri də İran və Cənubi Azərbaycan mövzusudur. M.Hadi İrandakı Məşrutə inqilabı dövründə və ondan sonrakı illərdə yazdığı bir çox şeirlərində İranda və Cənubi Azərbaycanda baş vermiş məsələlərə ya birbaşa, ya da dolayısı ilə münasibət bildirmişdir. Bu mövzuda yazdığı bəzi şeirlərində o, İranın tarixi keşmişini indiki acınacaqlı vəziyyəti ilə müqayisə edərək iranlıları tarixdən ibrət götürməyə səsləyirdisə, bəzi şeirlərində isə İranda baş verən hadisələri şərh etməklə iranlıları, xüsusilə Cənubi Azərbaycanlıları azadlıqlarını əldə etmək üçün səfərbər etmək istəyirdi. Səttarxanın başçısı olduğu inqilabı və onun qəhrəmanlarına alqışlayan müəllif, İrandakı monarxist şahlıq rejimi ilə yanaşı, azadlıq hərəkatına əngəl olan zümrələri, xüsusilə din xadimlərini ifşa etməkdən çəkinmirdi. Şair bu qəbildən olan əsərlərində belə bir qənaətə gəlirdi ki, azadlıq və istiqlaliyyəti arzulamaq yox, onu qazanmaq üçün mal, qan və canını verməklə mübarizə aparmaq lazımdır.
**Açar sözlər:** Şərq, azadlıq, inqilab, maarif və mədəniyyət, tarixi keçmiş

**Məqalə tarixçəsi:** göndərilib – 12.01.2023; qəbul edilib – 30.01.2023

# The subject of Iran and South Azerbaijan in Mahammad Hadi's poems

**Aybaniz Rustamova**
The high school No. 73 located in Narimanov district, Baku city. Azerbaijan.

**Abstract.** The article talks about the poems written by Mahammad Hadi, one of the founders and leaders of 20th century Azerbaijani romanticism, about Iran and South Azerbaijan. It is noted that in his poetry, which pays particular attention to education and culture, progress, independence, women's freedom, exposure of imperialism, etc., Iran and South Azerbaijan are one of the topics that have a special place. In many of his poems written during the Mashruta revolution in Iran and in the following years, M.Hadi commented directly or indirectly on the issues that happened in Iran and South Azerbaijan. In some of his poems on this topic, he compared Iran's historical past with its current sad situation and called on Iranians to learn from history, while in some of his poems, he wanted to mobilize Iranians, especially South Azerbaijanis, to gain their freedom by commenting on the events that took place in Iran. The author applauded the revolution headed by Sattarkhan and its heroes and did not hesitate to expose the groups, including the monarchist royal regime in Iran, that were an obstacle to the freedom movement, especially the clergy. In his works of this kind, the poet came to the conclusion that freedom and independence should not be wished for, but one should fight to win it by giving resources, blood and life.
**Keywords:** East, freedom, revolution, education and culture, historical past

**Article history:** received − 12.01.2023; accepted − 30.01.2023

## Giriş / *Introduction*

Azərbaycan romantizminin yaradıcılarından və bu ədəbi cərəyanın başçılarından biri olan Məhəmməd Hadinin (1879-1920) yaradıcılığında İran və Cənubi Azərbaycan mövzusu önəmli və əhəmiyyətli yer tutur. Sənətkar həm şeir və poemalarında, həm publisistikasında bu mövzuya dönə-dönə müraciət etmiş, Ömər Xəyyam, Sədi Şirazi, Hafiz Şirazi, Sənai Qəznəvi və fars dilində yazan Cənubi Azərbaycan şairlərinin bir çoxunun əsərlərini Azərbaycan dilinə tərcümə edərək mövzunun əhatə dairəsini daha da genişləndirmişdir. M.Hadi bu mövzuda olan şeirlərinin bəzilərini birbaşa məsələnin bədii həllinə həsr etmiş, bəzi şeirlərində isə dolayısı ilə problemə münasibət bildirmişdir.

## Əsas hissə / *Main Part*

Yaradıcılığının ilk illərindəki poetik əsərlərində (1905-1906-cı illər) əsasən maarif, mədəniyyət, mətbuat və insan azadlıqları kimi mövzulara daha çox müraciət edən Məhəmməd Hadi 1907-ci ildən başlayaraq Şərq, xüsusilə İran və Cənubi Azərbaycanda baş verən hadisələrə də münasibət bildirməyə başlayır. O, bu zaman ya İranın tarixi keşmişini indiki acınacaqlı vəziyyəti ilə müqayisə edərək oxucuları tarixdən ibrət götürməyə çağırır, ya da birbaşa hazırda baş verən və baş verməkdə olan hadisələri şeirə gətirir.

M.Hadinin şeirlərində İran adlı ölkənin və onun görkəmli şəxsiyyətlərinin adına biz ilk dəfə onun "Füyuzat" jurnalının 12 yanvar 1907-ci il tarixli 7-ci nömrəsində çıxan yeddi bəndlik "Təbriki-eydi-əzha" şeirində rast gəlirik [1, s.103-107].

Qurban bayramına həsr olunmuş altılıq – müsəddəs şəklində olan, "Bəşarət, əyyühəl-ixvan, bu gün bir eydi-zişandır" – misrası ilə başlanan və bütün bəndləri "Bu gündə seyyidül-kövneyn islamə səlam eylər, Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər" beyti ilə bitən şeirdə belə bir gündə, yəni Qurban bayramında "Seyyidül-kövneyn" – hər iki dünyanın başçısı hesab etdiyi Məhəmməd peyğəmbərin (s) millətin birliyinə sevinməsini, təbəssüm göstərməsini bildirən şair bir qədər sonra İslam dünyasının fəxri (mədari-fəxri-islam) hesab olunan Əbu Əli Sina, Fəxri Razi, Mövlana Qəzali, Cəlaləddin Rumi, Sənayi Qəznəvi, Sədi Şirazi, Mirzə Hüseynəli Bəhanın adlarını çəkir. "Maarif bağının məhsuludur iştə bu dahilər", – deyə onları oxucusuna təqdim edən şair maarif və mədəniyyətin bəşər övladının həyatında oynadığı rolu yüksək qiymətləndirir və təəssüflə onu da qeyd edir ki, belə dahiləri olan islam ölkələri, o cümlədən İran maarif, mədəniyyət, ümumi məhəbbət, ittihad və ittifaqdan uzaqlaşdığından, "Bu gün səhrayi-qəmdə qəlbi-aşiq tək pərişan, bazaricahanda əhli-xüsran, qəflətdə puyan" vəziyyətinə düşüb. Çıxış yolunu şair yenə də maarifdə, birlikdə, qardaşlıqda görür və yazır:

*Dəyanətpərvəran həbli-Xudaya etisam eylər,*
*Mühibbi-mülkü millət ittifaqə ehtimam eylər,*
*Vifaq olduqda əbnayi-vətən ehrazi-nam eylər,*
*Üxüvvət ilə hər kəs iktisabi-ehtişam eylər.*
[1, s.104].

M.Hadinin birbaşa İran mövzusunda yazdığı ən qiymətli şeirlərindən biri "Şərarıyi-ruh" əsəridir [9, s.128-131]. İlk dəfə "Təzə həyat" qəzetinin 17, 23 mart, 5 may 1908-ci il tarixli 61, 65 və 100-cü nömrələrində çıxan bu əsərə qəzetdə şeirin sərlövhəsindən əvvəl müəllifin belə bir qeydi verilmişdir: "Vətəncida bir dağdari-həsrətin əmaqi-ruhundan fəvəran edən atəşin təranəyi-cigərsuzanələrinə nəzirə" [2, s.61]. Ənənəvi hal olaraq nəzirə yazdığı, iqtibas və tərcümə etdiyi, hətta əsəri kimdən təsirlənərək yazdığını qeyd edən M.Hadi nədənsə bu şeiri kimə nəzirə yazdığını göstərməmişdir. Professor İslam Qəribli qeyd edir ki, "bizcə, bu şeir konkret bir əsərə nəzirə deyil və bəlkə də M.Hadi azadlıq və Təbrizdəki Məşrutə hərəkatı barədə yazılanlardan təsirlənərək bu alovlu şeiri yazmışdır" [11, s.196].

*Tükəndi ömri-qiymətdarımız bidad altında!*
*Qarardı nuri-istedad istibdad altında!* [9, s.128]

– beyti ilə başlanan və beytin "altında" rədifi saxlanılmaqla müxtəlif formalarda hər bəndin sonunda təkrarlandığı şeir on yeddi bənddən ibarətdir. On bəndi yeddilik, altı bəndi altılıq formasında olan şeirin ilk bəndində İslam millətini, müsəlman aləmini "atəşzarə", cəng, döyüş meydanına döndərən ən böyük bəlanın cəhalət, nadanlıq olduğunu bildirən müəllif sonrakı bənddə birbaşa İranın adını çəkərək deyir:

*Edən İranı viran iştə imrani-cəhalətdir*
[9, s.128].

Dördüncü bəndə qədər bir vaxtlar cənnət timsalında olan ("cənnəti-islam") İslam dünyasını hüquqsuz vəziyyətə salan, onun qəddini bükən, onu bərbad hala salıb xarabazara döndərən cəhalətdən, qəflətdən, övham və xurafatdan, zülm və vəhşətdən acı-acı gileylənən şair dördüncü bənddən etibarən müraciət obyektini dəyişir və azadlıq, hürriyyət problemi önə keçir. "Fəğan! Sultani-qəflət verməyir İranə hürriyyət", – deyən, hürriyyəti gözəl, pak, hər napak yerlərdə görünməyən iffətli bir qıza bənzədən müəllif bildirir ki, azadlığı sadəcə istəməklə onu əldə etmək olmaz. Azadlığı, istiqlalı əldə etmək üçün onun uğrunda vuruşmaq, qan tökmək, candan keçmək lazımdır. Monarxist bir rejimin, ona başçılıq edən şahın "xalq istəyir", – deyə iranlılara məşrutə – azadlıq verməsi qətiyyət mümkün deyil. Azadlıq verilməz, onu almaq lazımdır. Şair fikirlərini aşağıdakı kimi ifadə edir:

*Verilməz huri-hürriyyət, bu sözlər cümlə bicandır,*
*Bu fəttani-cahanın mehri yüz minlərcə qurbandır,*
*Fədakaranə aşiq lafə gəlməz, böylə fəttandır,*
*Keçər candan o kəs kim, talibi-rüxsari-canandır,*
*Bizim də karımız boş-boş, səmərsiz ahü əfğandır,*
*Tükəndi ömri-qiymətdarımız fəryad altında,*
*Qarardı nuri-istedad istibdad altında!* [9, s.129]

Bundan əvvəlki azadlığı təbliğ və tərənnüm etdiyi şeirlərdə olduğu kimi, M.Hadi bu əsərində də qeyd edirdi ki, bəşər övladı azadlığını qazanmaq üçün malını, canını əsirgəyərsə, ölüncə heyvan kimi əziyyət və zəhmət altında yaşamağa məcburdur. "Əsadən, xirqədən, təsbihdən, tiftik əbalərdən" bəhs edən İmam Cümə, Şeyx Fəzlullah kimi "əshabi-cəfaları" dinləyən, onların cənnət və cəhənnəm barədəki səfsəfələrinə uyan İran xalqına üz tutun, onu öz hüququnu anlamağa, onu əldə etməyə çağıran şair yazırdı:

*Əzizim, iştika etməkdəsən alimnümalardan,*
*İmai-Cümə, Şeyx Fəzlü səhabi-cəfalardan,*
*Əsadən, xirqədən, təsbihdən, tiftik əbalardan,*
*Bir az bəhs qıl əmrazi-cəhlə mübtəlaradan,*
*Zülmabadi-övham içrə dalmış biziyalardan,*
*Tükəndi ömri-qiymətdarımız bidad altında!*
*Qarardı nuri-istedad istibdad altında!* [9, s.129]

Bir zamanlar "qucağı məhdi-ərbabi-zəka olan", bəşəriyyətə Sədi, Firdovsi kimi dühalar bəxş edən İran indi "zülamabad" bir ölkə halına salınmış və məmləkət "cəhli-istibdad altında" inləməkdədir. Səbəb nədir ki, Şeyx Fəzlullah kimi bir şər, fitnə-fəsad yuvasına "İran aşiyan olmuş"dur? Bunun nəticəsidir ki:

*Təməddün dilbəri fərtutə, vəhşət növcavan olmuş,*
*Maarif cənnəti solmuş, vərəqrizi-xəzan olmuş,*
*Xamuşabadi-nisyanda bu bülbüllər nihan olmuş,*
*Zəğənlər, bumlar baği-vətəndə növhəxan olmuş.*
[9, s.130]

"Mənə küsdünmü, bilməm, ey vətən, ey dilbəri-balım", – deyə İranın dərdlərindən, onun göylərini qaraldan kəsif buludlardan söz saldığı, eyiblərini açdığı üçün vətənin ondan inciyə biləcəyini bildirən, özünü "Mən ol avarə mürğəm zəxmdar olmuş pərü balım" şəklində təqdim edən müəllifin lirik qəhrəmanı "Birər girdik məzarə pəncəyi-bidad altında", – deyərək fəryad edir:

*Yazıq olsun sənə, ey mətləi-əhrar olan İran!*
*Sitəm dəsti ilə misbahi-fəlahı tar olan İran!*
*Sürurabadi-istiqlalı mətəmzar olan İran,*
*Olub nazəndə övladın nasıl gör tar-mar İran!*
*Bu gündə inildəyir pəncəyi-bidad altında,*
*Gəl, ey nazəndə tale, gör bizi fəryad altında!*
[9, s.130]

İranlılara bir zamanlar İranda Nuşirəvan kimi ədalətli şahların hökmranlıq etdiyini, bu ölkənin ədalətli qanunlarla idarə olunaraq əmin-amanlıq ölkəsi olmasını xatırladan M.Hadi təəssüflə bildirir ki, İran indi zülm ilə ədalətdən əsər-əlamət olmayan məmləkət halına salınmışdır. İdarəetmə sistemindəki naqisliklər ölkəni elə vəziyyətə gətirib çıxarmışdır ki, millətin qanına susayan minlərlə səyyad – ovçu, çoxlu sayda cəlladlar peyda olmuş, beləliklə, "Nə fəryad etməyə avazi-istimdadımız", nə də fəryadımızı dinləyən "bir imdadımız vardır". Fikirlərini şair belə ifadə edir:

*Biz ol biçarə ahuyuz ki, min səyyadımız vardır,*
*Bu vəhşətgahda, bax kim, nə çox cəlladımız vardır,*
*Nə səmtə ətfi-çeşm etsək, nə bir imdadımız vardır,*
*Nə fəryad etməyə avazi-istimdadımız vardır:*
*Usandıq bunca fəryadü fəğanü dad altında!*
*Vətən amadəyi-ifnaydır bidad altında!* [9, s.130]

Bəs nə etməli, çıxış yolu nədədir? "Ey islam oğlu islam! Sən də adamsan, ayıl bir an!" – deyə vətəndaşlara xitab edən, çıxış yolunu "Aylı, ey xabə dalmış, yatma istibdad altında" şəklində ifadə edən şair son olaraq bildirir ki, sürünməklə yaşamaqdansa, kişi kimi ölmək daha şərəflidir və:

*Fədakarani-aləm gör nasıl təhsili-şan etmiş,*
*Birin meydani-qovğada ədu tirə nişan etmiş,*
*Bu millət qəhrəmanı nəfsdə mövtün əyan etmiş,*
*"Vətən! Ah, ey vətən!" əlfazı ilə tərki-can etmiş:*
*Ayıl, ey xabə dalmış, ölmə istibdad altında,*
*Ölürsən öl yenə bir şanlı, ali ad altında!*
[9, s.131]

1907-1908-ci illərdə İranda verən hadisələr bir şair və mütəfəkkir olaraq M.Hadinin diqqətindən yayınmamışdır. Xüsusilə, Təbriz hadisələri, Səttarxanın başçılığı ilə təbrizlilərin dünyanı heyran edən qəhrəmanlığı şairə ilham vermişdir. Bu hadisələrdən vəcdə gələn sənətkar Məşrutə inqilabının xalqın taleyində mühüm rol oynayacağına inanaraq "İranın hürriyyət qəhrəmanlarına" şeiri [3, s.203] ilə inqilabı və onun qəhrəmanlarını alqışlamışdır. Yeri gəlmişkən qeyd edək ki, səkkiz bəndlik müsəddəs formalı bu şeir türk şairi Namiq Kamalın bir şeirindən təsirlənərək yazılmış və hər bəndinin sonunda N.Kamalın "Arş irəli, arş, bizimlədir fəlah, Arş, igidlər, vətən imdadinə!" misraları nəqarət kimi təkrar edilmiş və həmin misralara müəllif tərəfindən belə bir qeyd verilmişdir: "Axırıncı şeir şairi-atəşzəban Namiq Kamal həzrətlərinindir" [3, s.203].

M.Hadinin:

*Fəcri-zəfərdən gülüyor intibah,*
*Tiği-fütuhat ilədir inşirah,*
*İştə əməl, iştə səbahül-nicah,*
*Həqqü həqiqət sizə olsun pənah:*
*"Arş irəli, arş, bizimlədir fəlah,*
*Arş, igidlər, vətən imdadinə!",*

– bəndi ilə başlayan "marş təsiri bağışlayan bu şeirini Məşrutə hərəkatının qəhrəmanları haqqında nəğmə də adlandırmaq olar" [11, s.214]. M.Hadi azadlıq uğrunda hərəkata möhkəm bağlılığını və inamını müdafiə etdiyi bu əsərində İranda istibdadın hökm sürdüyünü göstərməklə yanaşı, "inqilabçıları, hürriyyət qəhrəmanlarını səy etməyə, öz qılıncını işə salmağa, qələbə çalmağa dəvət edir" [10, s.114]. Fədailərə vətənin bərbad olmasını, hər tərəfdən nalə və fəryad səslərinin eşidilməsini xatırladan müəllif bildirir ki, vətən torpağı, yəni İran hürriyyət üçün təşnədir və bu azadlığı İrana və onun sadə vətəndaşlarına yalnız sizlər verə biləcəksiniz. Məşrutə inqilabının qəhrəmanlarını alqışlayan, Kərbəladan İmam Hüseynlə bərabər yetmiş iki şühədanın, canını "vətəni-pak üçün fəda qılan" Abbas Ağa kimi millət xadimlərinin ruhlarının onlara duaçı olmasını dilə gətirən şair daha sonra vəcdə gələrək yazır:

*Ərzi-Nəcəfdən dəhəni-Mürtəza –*
*Sizləri alqışlayır, eylər səda:*
*Sövləti-şirananizə mərhəba!*
*Nüsrət edir tiğinizi pişva!*
*"Arş, irəli, arş, bizimdir fəlah,*
*Arş, igidlər, vətən imdadinə!"* [8, s.150]

M.Hadinin mövzu ilə bağlı dərc etdirdiyi şeirlərdən biri də "Bu gün" rədifli "Növhə" əsəridir [4, s.12].

*"Kərbübəla bu gündə İranə qarşı ağlar,*
*İranə qarşı ağlar Kərbübəla bu gündə",*

– misraları epiqraf kimi verilmiş bu kəskin və ittihamedici şeir iyirmi yeddi beytdən ibarətdir. Əsərdə İranın bu günkü durumu 680-ci ilin sentyabrında Müaviyə oğlu Yezidin Kərbəla səhrasında törətdiyi vəhşiliklərlə müqayisə olunur.

Şairin təsvirində İran bir matəm səhnəsidir. Əgər Kərbəla müsibətində İmam Hüseyn başda olmaqla həqiqətin, ədalətin bərpa olunması yolunda şəhid olmuş 72 şühədanın əhvalına Nəcəfdən Həzrət Əli, Mədinədən Peyğəmbər qızı Fatimə göz yaşları axıdırdısa, indi həmin və üstəgəl İmam Hüseynin də göz yaşları İranda şəhid olmuş mücahidlər üçün axıdılır. Şairin qəti qənaətinə görə, ölümü ilə ölümsüzlük qazanan, zülmə qarşı üsyan etməyin yollarını bəşəriyyətə göstərən İmam Hüseynin ruhu bu gün İran səmalarında dolaşır və bu ruh şühədalara fatihəxan olmaqla yanaşı, onlarla bir cərgədə irticaya qarşı döyüşür.

İmam Hüseynə xitabən:

*Sən qürub eylədin, ey şəmsi-səmavati-həyat,*
*Fəcri-hürriyyət olub Şərqdə taban bu gün.*
*Sən üful eylədin, ey nəcmi-ziyabəxşi-qülub,*
*Qəlbi-millətdə doğub kövkəbi-rəxşan bu gün,*

– deyən şair bildirir ki, Yezid və onun kimi cahillər sənin qədrini bilməsələr də, sənə tarix qiymət verdi. Sən başda olmaqla “yetmiş iki şanlı cavanani-qəyur”un “eydi-hürriyyət üçün” başlarını qurban verməklə yaratdığı şəhidlik məktəbi bu gün neçə-neçə mücahidə vətən uğrunda, millət və onun namusu naminə şərəflə çarpışmağın yollarını öyrədir. Zülm ilə viran olan İran indi dünənki İran deyil, millət ayağa qalxıb, silaha sarılaraq öz haqqını tələb edir və:

*Bir məzari-şühədadır bu gün ol xütteyi-pak,*
*Fışqırır hər tərəfə xüni-xüruşan bu gün.*
*Zülm qıldı o gözəl yerləri qan tufanı,*
*Əl-ayaq çalmadadır onda fədayan bu gün.*
[4, s.12]

İran irticasını “divi-məzalim” adlandıran şair irticaya xitabən bildirir ki, bu gün axıtdığın qanlardan həzz alır, həyasızcasına millətin haqqına təcavüz edirsən. Sənin qəlbində ədalət nurundan bir əsər yoxdur, amma Yezidə vəfa etməyən dünya sənə də vəfa etməyəcək. Axıdılan qanlar yerdə qalmayacaq və sən azadlıqsevərlərin əli ilə tarixin qaranlıq bir küncünə atılacaqsan. Mücahidlərin qazandığı əbədi məhəbbət, sənin qazancın isə əbədi nifrət olacaqdır, çünki mücahidlər İmam Hüseyn məktəbinin, sən isə Yezid məktəbinin yetişdirməsisən.

“Eydiyanə” şeirini də [5, s.54] müəllif İran inqilabında şəhadətə yetmiş mücahidlərin ruhuna ithaf etmişdir. “Gəl, ey bahari-təcəddüd, güzər qıl İranə” misrası ilə başlanan əsərdə şair bahara xitabən bildirir ki, sənin İran torpağında lalələrin açılmasına yardımçı olmağına hacət yoxdur, çünki “Şükufələr bitirir qanları şəhidanın”. Şairin fikrincə, İran torpağında baharın yağış yağdırmasına belə ehtiyac yoxdur, çünki “Yetimlər gözü bu gülşənə tökür xunab”. Bahara xitabən yazılmış son üç beytdə oxuyuruq:

*Get özgə bağlara ağla, sən ey səhabi-bahar,*
*Burda şivən üçün dul qalan qadınlar var.*
*Bu yerdə bərqini parlatma, ey səhabi-səma,*
*Bu yerdə parlayır atəşli vaveyla.*
*Əbəs-əbəs bu cahanlarda nərə vurma, səma,*
*Mücahidani-həqiqət onu edirlər ədа.* [8, s.168]

Məhəmməd Hadinin İran və Cənubi Azərbaycan mövzusunda yazdığı və “Əbdülsəlimzadə Məhəmməd Hadi” imzası ilə “Sədayi-həqq” qəzetində dərc etdirdiyi həcmcə o qədər də iri olmayan “Aini-tacgüzari münasibətilə İranın cavan şahına” şeiridir [6, s.156]. Bu şeir Qacar sülaləsindən olan sonuncu İran hökmdarı Əhmədəli şahın taxta çıxması münasibətilə yazılmışdır. Bu şeir, əslində təbriknamə yox, bir nəsihətnamədir. İranda baş vermiş Məşrutə hərəkatına, azadlıq mücadiləsinə əsərlər həsr edən şair bu əsərində İranın təzəcə səltənət kürsüsünə oturan şahına:

*Ey bir qədim mülkün şahi-növcavanı,*
*Solmuş o bağzarın, ey tazə bağçabanı!*
[6, s.156]

– sözləri ilə müraciət edərək bildirir ki, bir zamanlar “hər bağçasında min gül, hər guşəsində gülşən” ətir saçan, torpağı mərifət günəşi ilə qapsayan bu məmləkət cəhl və zülm əli ilə elə bir hala gətirilib ki, aləm bir-birinə qarışmış, hər tərəf qan və qəm qoxuyur. Bəs nə etməli, İranı düşdüyü səfalətdən necə qurtarmalı? Dövlət işlərində elmin tələblərinə əməl etməsini vacib sayan və

bunu cavan şaha da məsləhət bilən şair qurtuluş yolunu aşağıdakı kimi göstərir:

*Ey şahi-təxti pira, ey Əhmədi-cavanbəxt,*
*Bir şairi-səmimi eylər sənə nəsihət.*
*Təhsilinə davam et, ey şahi-elmpərvər,*
*Ol kişvəri-cəhalət elm istər, irfan istər!*
*Şiranə qüvvət ilə parlat şu afitabı,*
*Təmirə fikrin olsun ol aləmi-xərabı.* [6, s.156]

14 iyun 1914-cü ildə Bakıda yazılan, "Əbdülsəlimzadə Məhəmməd Hadi" imzası ilə "Ədəbiyyat" başlığı altında dərc olunan "Müəmmayi-kainat" şeiri də [7, s.163] dolayısı ilə İran mövzulu əsərlərdən hesab edilə bilər.

Mükəmməl şeir texnikasına və dərin fəlsəfi məzmuna malik olan bu əsərində şairi düşündürən əsas məsələ ondan ibarətdir ki, görəsən dünyanın işləri nədən əksliklər və ziddiyyətlər üzərində qurulub və xeyirlə şərin mübarizəsindən məğlub olması vacib və zəruri olan şər qalib ayrılır? Vicdanı azların şan-şərəf sahibi sayılması hansı məntiqə uyğundur?

Dünyanın işləri baş-ayaqdır. Bir qrup "parlayan evlərdə can bəsləyir", əksəriyyət isə "atəşi-fəqrə" yanır. "Ağlayır, sızlar biri, min dərd, min alam ilə, Başqa bir şəxsin dodağı, üzləri xəndanlıdır". Haqq deyən, haqq söyləyən, haqq istəyənlər haqsız, əlində imkanlar, qüvvətə malik olanlar çirkab içində üzsələr belə haqlıdırlar. Nəhayət:

*Daima məğlub olan həqdir əlində qüvvətin,*
*Çünki "qüvvət" ingilisli, "həqq" bir iranlıdır.*
[8, s.233]

Təbii ki, bənzətməsində tam haqlı olan şair ziddiyyətlərin mənbəyini nə yaradanda, nə də təbiətin qanunlarında axtarmır. O bilir və həm də bildirir ki, ədalətli qanunlarla idarə olunmayan cəmiyyətlərdə həqiqətin riya, qüvvət önündə məğlub olması qaçılmazdır. Bəs nə etməli? Sualın cavabını əsərlərində təkrar-təkrar verən müəllif cavabı oxucuların öhdəsinə buraxır və heç şübhəsiz ki, oxucu şairin nəyə işarə etdiyini, nə istədiyini çox yaxşı anlayır.

## Nəticə / *Conclusion*

Göründüyi kimi, böyük mütəfəkkir sənətkar olan M.Hadi XX əsrin əvvəllərində dünyada baş vermiş bir çox ictimai və siyasi hadisələrə laqeyd qalmadığı kimi, İranda və İranın tərkibində olan Cənubi Azərbaycandakı olaylara da seyirçi qalmamış, hadisələrə isti-isti münasibət bildirmişdir. Diqqət edilərsə, M.Hadi baş vermiş və baş verməkdə olan məsələlərə obyektiv yanaşmış, zülmün kökünün kəsilməsi, xalqın normal, qanunlarla idarə olunan bir cəmiyyətə, quruluşa ehtiyacı olduğunu vurğulamış və sistemin dəyişilməsinin bir inqilaba ehtiyacı olduğu qənaətinə gəlmişdir. İran mövzusunda olan poema, publisistik əsərlərində olduğu kimi, şairin lirik şeirlərində də kəskin və ittihamedici ruh aydın şəkildə görünür ki, bu da hər şeydən əvvəl, sənətkarın idealı və dünya hadisələrinə bəslədiyi ayıq münasibəti ilə bağlı idi.

## Ədəbiyyat / *References*

1. İslam, Q. Məhəmməd Hadi: həyatı və yaradıcılığı. – Bakı: Elm və təhsil, 2020.
2. Məhəmməd, H. Təbriki-eydi-əzha. "Füyuzat" jurnalı, 12 yanvar 1907-ci il, № 7.
3. Məhəmməd, H. Şərarəyi-ruh. "Təzə-həyat" qəzeti, 17, 23 mart, 5 may 1908-ci il, № 61, 65, 100.
4. Məhəmməd, H. İranın hürriyyət qəhrəmanlarına. "Təzə həyat" qəzeti, 1 sentyabr 1908-ci il, №203.
5. Məhəmməd, H. Növhə. "İttifaq" qəzeti, 14 yanvar 1909-cu il, № 12.
6. Məhəmməd, H. Eydiyanə. "İttifaq" qəzeti, 8 mart 1909-cu il, № 54.
7. Məhəmməd, H. Aini-tacgüzarı münasibətilə İranın cavan şahına. "Sədayi-həqq" qəzeti, 9 iyul 1914-cü il, № 156.
8. Məhəmməd, H. Müəmmayi-kainat. "Sədayi-həqq" qəzeti, 16 iyul 1914-cü il, № 163.
9. Məhəmməd, H. Seçilmiş əsərləri. Birinci cild. – Bakı: Elm, 1978.

10. Məhəmməd, H. Əsərləri. İki cilddə, birinci cild. – Bakı: Elm, 2020.
11. Məmməd, C. Seçilmiş əsərləri. II cild. – Bakı: Azərnəşr, 1974.

## Иранская и Южно-Азербайджанская тематика в стихах Мухаммеда Хади

**Айбениз Рустамова**
Полная средняя школа № 73 Наримановского района г.Баку

**Резюме.** В статье рассматриваются стихи основоположника азербайджанского романтизма XX века Мухаммеда Хади, посвященные Иранской и Южно-Азербайджанской тематике. Как известно, в поэзии М.Хади важное внимание уделялось проблемам просвещения, культуры, прогресса, независимости, свободы женщины, обличению империализма и т.д. В то же время в творчестве этого крупного художника особое место имела Иранская и Южно-Азербайджанская тема. В период революции и после нее М.Хади во многих своих стихах, как прямо, так и косвенно, освещал прошлую историю Ирана, невыносимое положение народа, привлекал внимание к отдельным произошедшим событиям. Главной целью стихов М.Хади, посвященных Ирану, было пробуждать сознание людей и призвать их к подлинной свободе. М.Хади во многих своих стихах прославлял лидера Иранской революции Саттархана и героев. Наряду с критикой монархического шахского режима, он с сарказмом и иронией бичевал коварных религиозных представителей. В стихах, посвященных Ирану и Южному Азербайджану, главным мотивом является мысль о том, что свободу и независимость можно приобрести не желаниями, а борьбой, не щадя жизни и крови.
**Ключевые слова**: Восток, свобода, революция, просвещение и культура, историческое прошлое